# İstirahət səhifəsi

## Düşüncələrin müsbət aurası

*Yaşanılan hər dövrdə insanın istirahət etməsinə, öz dünyasına xoş avaz bəxş edəcək dəqiqələrə ehtiyac duyulur. Bu xoş bir gəzinti, əzizləri, ailəsi ilə birgə keçiriləcək anlar, musiqi, poeziya, lətifələr söyləniləcək dəqiqələrdir.*

*Həyatın qaçılmaz, hər kəsin özünəməxsus problemlərindən azacıq da olsa uzaqlaşmaq üçün hər kəs özünə zaman ayırmalı, beyin yorğunluнu azaltmalıdır. Məhz sadaladığımız belə məqamları özü üçün ayıranlar öz ömrünə nikbinlik çalarları bəxş edir və onların həyatına müsbət auralar daha çox daxil olur.*

*Poeziya, bədii ədəbiyyat daha çox düşündürücü sayıldığı üçün bu nömrəmizdən etibarən oxucularımıza “istirahət səhifəsi” ayırmışıq. Burada Qəbələnin həvəskar yaradıcı insanlarının poetik və bədii düşüncələrindən süzülüb gələn misra və sətirlərlə sizləri tanış edəcəyik. İnanırıq ki, bu səhifə sizlərə, sizlərin asudə vaxtlarına maraq doğuracaq!*

## Azərbaycanım

Vurğunam elimə, elə bağlıyam,
Bülbüləm, bir şəhli gülə bağlıyam.
Ömrü həm qaralı, həm də ağlıyam.
Damarda qanımdır, cisimdə canım,
Qüdrətli Vətənim, Azərbaycanım.
Bölgəyə bölmürəm, şah damarımdır,
Göylərə ucalan al bayrağımdır.
Elimdır, obamdır, öz yurd-yuvamdır.
Mənim şöhrətimdir, mənim ad-sanım,
Qüdrətli Vətənim, Azərbaycanım.
Rənayam, qəlbimdə arzularım var,`
Arzuya yetirən bir Allahım var.
Dildə “La ilahə illəllah”im var.
Qulaqda Azanım, Vətən ad- sanım,
Qüdrətli Vətənim, Azərbaycanım.

**Rəna AZAKLI, (Mahmudova).**
**Qəbələ Yazarlarına Dəstək ictimai birliyinin təsisçisi, qanuni təmsilçisi, sədr.**

## Min rəhmət

*(Şəhid Azərə ithaf)*

Çox sual içində itibdir başım,
Yanağımda donub vallah, göz yaşım.
Məni qınamasın dostum, sirdaşım,
Oğullar şəhiddir sanki təzə-tər,
Ruhuna min rəhmət, min rəhmət Azər!
Yüz arzu yatırdı köksündə sənin,
Bir şənlik içində keçib hər dəmin,
Vətən bütövlüyü kədərin, qəmin,
Doğurdun günəştək hər gün, hər səhər,
Ruhuna min rəhmət, min rəhmət Azər!
Elə bil bahardır məzarın üstə,
Anan sənsizlikdən olubdu xəstə,
Ruhun cənnət içrə gəzir ahəstə,
Sevənlər qəlbinə qızıl gül düzər,
Ruhuna min rəhmət, min rəhmət Azər!
Atanın yuxusu ərşə çəkilib,
Gəzdiyin yerlərə gözlər dikilib,
Ay-ulduzlu bayraq üzünə gülüb,
Azad torpaqlarda əlbəəl gəzər,
Ruhuna min rəhmət, min rəhmət Azər!
Heyif görmədiniz zəfər yazını,
Bir yol çəkmədiniz sevgi nazını,
Duymadınız fəqət toy avazını,
Sizsiz bu gözəllər meydanda süzər?
Ruhuna min rəhmət, min rəhmət Azər!
A kiçik balalar, körpə balalar,
Analar gül ətrin sizlərdən alar,
Bir dərin yaradır ruha iz salar,
Fəxri, elin dərdi qəlbini əzər,
Ruhuna min rəhmət, min rəhmət Azər!

**Fəxrəddin BABABƏYLİ,**
**təqaüddə olan baş müəllim, filoloq.**

## Zəfər nəğməsi

Ucalt bayrağımı, göylərə ucalt,
Ürəyindən dərdi-qəmi götür at.
Şair qardaş, qələmi al yaz-yarat,
Qələbə nəğməsi, zəfər nəğməsi.
İgidlərdir el-obanın güvənci,
Hansı birin yada salım birinci?
Ataların-anaların sevinci,
Qələbə nəğməsi, zəfər nəğməsi.
Hər daşında, hər dağında səslənir,
Ana yurdun qucağında səslənir.
Qazilərin ocağında səslənir,
Qələbə nəğməsi, zəfər nəğməsi..
Düşmənlərə dərin məzar qazıldı,
Kor düyünlər bircə-bircə çözüldü.
Şəhidlərin baş daşında yazıldı,
Qələbə nəğməsi, zəfər nəğməsi.
Sinələrə vurulmuşdu min yara,
Salam olsun qazi gələn yollara,
Al qələmi, bir şeir yaz, Elmira,
Qələbə nəğməsi, zəfər nəğməsi.

**Elmira ABDURAHMANQIZI,**
**Qəbələ şəhəri.**

## Doymaq olmur səndən dünya

Dağ yamaclar rəngbərəng,
Bu nə vəcdə bu nə ahəng,
Hörüb yamaclarda çələng,
Baxmaq olmur gendən dünya,
Doymaq olmur səndən dünya.
Çeşmələrin coşub daşar,
Yoxdur bir-birinə oxşar,
Günlər keçir axar-baxar,
İnciyirəm hərdən dünya,
Doymaq olmur səndən dünya.
Bağlanmışam elə sənə,
Düşsəm də dumana, çənə,
Sıxıb məni öz köksünə,
Uzaq tutar qəmdən dünya,
Doymaq olmur səndən dünya.
Sən qocaman, mən qonağın,
Dəyişməzdi bu növrağın,
Mənnən ötən o xoş çağın,
Yada sal sən hərdən dünya,
Doymaq olmur səndən dünya.
Fələyin yazdığı ömür,
Gedən karvan geri dönmür,
Şəhlanın sevgisi sönmür,
Danışarsan bizdən dünya,
Doymaq olmur səndən dünya.

**Şəhla XƏLİLQIZI,**
**“Qəbələnin səsi” ədəbi yazarlar birliyinin sədri.**

## Komandan

Vətənimin nəfəsində bir ad var,
O ad ilə ucalıbdır bu diyar.
Zaman-zaman sınaqlardan çıxan xalq,
İlham ilə yaşayacaq bəxtiyar.
Şəhidlərin qanı yerdə qalmadı,
Düşmən dizin yerə qoydu önündə.
Türkün yolu bilin qızıl almadı,
Dəmir yumruq bir simvoldur bu gün də.
Qarabağda dalğalandı bayrağın,
Cıdır düzü, Şuşa verdi sorağın.
Millətimin sabahını düşündün,
Zəfər, sülhə qarışıbdır növrağın.
Azərbaycan, adın haqqın özüdür,
Ulu Heydər ədalətin gözüdür,
Sinən daim bir alınmaz qaladır,
İlham zəfər, müstəqillik sözüdür.
Dastan olub yayılıbdır gur səsin,
Sənə sadiq cavan, qocan, hər kəsin,
Azərbaycan Qarabağdır deyəndə,
Dünya ilə ahəngdardır nəfəsin

**Aysel QƏBƏLƏLİ,**
**Daşca kəndi.**

## Şəhid ürəyi

Günəş.şəfəqləri qurudar suyu,
Buxara çevirər, yaradar düman.
Damcılar gölməçə,gölməçə quyu,
Dumansa yağışa qara bir güman...
Halal çörəyiylə, ana canıyla,
İgidlik bəxş edər ta qanıyla.
Torpağa can verər şəhid ürəyi,
Torpağın altında şəhid kürəyi.
Torpağın üst qatı canlı həyatdır,
Şəhidlik çiynində dayanıb torpaq,
Torpaq Yer kürəsi ,bir kainatdır,
Həyatsa dövr edən canlı saatdır.
Bumeranqdır həyat,düşünsən əgər,
Atdığın nə varsa dönər özünə.
Tarixi yenidən yazarsa əsgər,
İgidlik tarixin özünə dönər!

**BIBIXANIM.**

## Şəhidlər

Sizin hünərinizlə doğdu Zəfər günəşi,
Yazdığınız tarixə təzim edir hər kişi.
Nəhayət ki ,baş tutdu haqqın haqla görüşü,
Haqqınızda nə yazsaq vallah azdır, Şəhidlər!
Çəkdiyimiz acıdan ağarsa da başımız,
Sizdən ötru axsa da durmadan göz yaşımız,
Sayənizdə beş ildir, düz beş ildir qışımız
Əvvəlkitək yenə də yaydır, yazdır, Şəhidlər!
Sözümüzün qüdrəti çatsa da Yerdən Göyə,
Xeyirbəyin yazdığın kim öyməyə, kim öyə.
Azərbaycan bir daha düşməsin bərkə deyə,
Ruhunuzla hər kəsə tarix yazdız, Şəhidlər!

**Cəlil XEYIRBƏY,**
**Dizaxlı kəndi.**

## İnsan deyil, insanlıqdır əbədi...

Yatırıq, yuxu görürük! Səhər yuxudan oyanan kimi, bu yuxunu yozmağa çalışırıq. Ancaq heç birimiz fikirləşmirik ki, yuxu ölümün məşq saatıdır. Fikirləşmirik ki, bu həyatda bizə tək bir nəğmə də bəs edər. Dünyaya gəldiyimizdə duyduğumuz ilk səs (layla) və öldüyümüzdə son səda kimi bəs edər bizə; bir nəğmə.

Ölürük, ancaq öldüyümüzdə hansısa bir daşa can veririk. Amma özümüz adi bir daş qədər yaşaya bilmirik.

Bu torpağa əkin əkirik, becəririk. Bəzən torpaq üstündə dava edənlər də olur. Ancaq onlar bircə an, bircə saniyə belə fikirləşmirlər ki, hər kəsin torpaq payı öz boyu qədərdir.

Axı niyə dünyanı sərhəd-sərhəd bölürlər? Hər sərhəddən eyni günəş, eyni ay görünmürmü? Hər sərhəddən insanlar eyni səmaya baxmırlarmı? Eyni dünyanın suyunu, havasını qəbul etmirlərmi?

Dünyada əbədi nə qalır axı? Əbədiyyətin yolçuları? Yox! - Zamanın sürətinə çatmaq istəyən avtomobillər? Yox! - Bu dünyada heç nə əbədi olaraq qalmır. Heç nə!

**Elnarə ASLAN,**
**Bunud kəndi.**

## Dünyamız

Dünya bir cənnətdir başdan, əzəldən,
Gəl, üz döndərməyək biz bu gözəldən.
Qanlı müharibə, terror, cinayət...
Son verək bunlara duraq nəhayət.

Nə olar dünyada sakit yaşayaq,
Vicdanımız qoysun qırğına yasaq.
Qoy qan tökülməsin günahsız yerə,
Gəl, cəllad olmayaq biz körpələrə.

Can verə bilmirik, can da almayaq,
Qatil, cinayətkar, cəllad olmayaq.
Dünyanı ən sakit bir yer eyləyək,
Amma barbar kimi yadda qalmayaq.

Udaq havasından, içək suyundan,
Həzz alaq şadlıqdan, doyaq toyundan,
Qoy sussun silahlar, bitsin ölümlər,
Dünyamız qutarsın iyrənc oyundan.

**Zinyət TAHIRLI,**
**Xırxatala kəndi.**

## Hökümə

*(Elimizin qəhrəman qızı stüardessa Hökümə Əliyevanın əziz xatirəsinə).*

Sən idin göylərin hər an baş tacı,
Gedişin bizləri göynətdi, bacı,
İndi yaşayırıq bir ağrı-acı,
Bütün eşidənlər xəyala daldı,
Səndən bizə səsin xatirə qaldı.

Ürək-dirək verdin hamı sevindi,
Uçağı vurdular tez yerə endi,
Nə kəsəklər dindi ,nə daşlar dindi,
Zalım fələk nə tez canını aldı.
Səndən bizə səsin xatirə qaldı

Yeni başlayırdı o gənclik çağın,
Göz yaşı axıdır daşın, torpağın
Qaraya büründü qırmızın, ağın,
Niyə belə oldu bəs bu nə haldı?
Səndən bizə səsin xatirə qaldı.

Adında titrəyiş bir hökm vardı,
Sanki donub qaldıq hər tərəf qardı,
Səntək gözəlləri fələk apardı,
Yanan ürəklərə qəm-qüssə saldı,
Səndən bizə səsin xatirə qaldı.

Göylərdə qartaltək olmuşdun mətin,
Qəlblərdə qalacaq saf məhəbbətin,
Bir igid qızısan bu məmləkətin,
Ürəkdən deyirik sənə: - Halaldı,
Səndən bizə səsin xatirə qaldı.

**Mirhəsən AĞAYEV.**
**Qəbələ.**

## Rahat uyu, ay Adəm

*(Bumun igid oğlu, şəhid - Adəm İkram oğlunun doğum gününə)*

Suvarıldı qanınla,
İşğaldakı Ağdərə.
Qələbəyə yol açdın,
İradənlə, hünərlə.

Vətən səni səslədi,
Qartaltək öndə durdun.
İlk döyüşdə seçildin,
Düşmənin belin qırdın.

Ağdərə qartalısan,
Adın düşmür dillərdən.
Hər an yerin görünür,
Söhbət açılır səndən.

Ovundura bilmirəm,
Heç cür İkram atanı.
Ürəyimə od düşür,
Görüb Zeynəb ananı.

Qoca Tahirə nənə,
Halına döze bilmir.
Saxlayammır göz yaşın,
Heç vaxt sevinib gülmür!

Ağdərə də alındı,
Rahat uyu, ay Adəm!
Sənin igidliyinə
Heyran olubdur aləm!

**Emin BARATOĞLU,**
**Bum kəndi.**

## Ağac



Hər kəs ağac əkməlidir,
Zəhmətini çəkməlidir,
Qoruyub, becərməlidir,
Ömrə zəmanətdir ağac,
Əvəzsiz nemətdir ağac.
Odur verən hər bəhəri,
Oksigenli kölgələri,
Yaşadan kəndi, şəhəri.
Ömrə zəmanətdir ağac,
Təbib, təbabətdir ağac.

Həm ev olar, həm eyvanı,
Səni yaşadanı tanı,
Onu əvəz edən hanı?
Ömrə zəmanətdir ağac,
Sel, sulara bənddir ağac.
Meyvə verir, ye, sat, dolan,
Ağac əkər ağlı olan,
Məncə sözüm deyil yalan.
Ömrə zərurətdir ağac,
Varlanmağa fənddir ağac.

Əkdi yedik, biz də əkək,
Sovqat verək ətək-ətək,
Oğul, işdə babana çək!
Ömrə zəmanətdir ağac,
Yaşamağa şərtdir ağac,
Bizə əmanətdir ağac!!!

**Əhməd MƏMMƏDLI,**
**Nic qəsəbəsi.**